*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 19 sentyabr 2015-ci il | № 72 (1988) | Qiyməti 25 qəpik

## Çex Respublikasının Prezidenti Miloş Zemanın Azərbaycan Respublikasına rəsmi səfəri

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Çex Respublikasının Prezidenti Miloş Zemanın sentyabrın 15-də rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Miloş Zemana, Çex Respublikasının nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

* * *

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın təkbətək görüşü olub.

Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu səfərin ikitərəfli münasibətlərin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi. Əlaqələrimizin möhkəmləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulandı.

* * *

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd olundu, iqtisadi əməkdaşlığımızın inkişafından məmnunluq ifadə edildi və bu əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi. Nəqliyyat, energetika, qarşılıqlı investisiya qoyuluşu, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

* * *

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın iştirakı ilə Azərbaycan-Çexiya sənədləri imzalanıb.

Azərbaycan Respublikası ilə Çex Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çex Respublikasının Prezidenti Miloş Zeman imzaladılar.

* * *

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Prezidenti Miloş Zemanın birgə mətbuat konfransı olub.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış ediblər.



### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, səfər çox uğurlu keçəcək və səfərin nəticələri ölkələrimizi bir-birinə daha da yaxın edəcəkdir.

Əlaqələrimiz uğurla inkişaf edir. Siyasi, iqtisadi, mədəniyyət sahəsində çox gözəl nəticələr vardır. Biz siyasi sahədə uğurlu əməkdaşlıq edirik. Beynəlxalq müstəvidə də, beynəlxalq təşkilatlar çərçivəsində də birgə fəaliyyət göstəririk, əməkdaşlıq edirik. Bu gün biz Sizinlə əlaqələrimizin müxtəlif aspektlərini geniş və səmimi şəkildə müzakirə etdik. Bir daha görürük ki, ikitərəfli əməkdaşlığın dərinləşməsi üçün heç bir maneə yoxdur, əksinə, bizim aramızda tərəfdaşlıq və dostluq əlaqələri yaranıbdır.

Bu gün imzalanan strateji tərəfdaşlıq haqqında Bəyannamə bu sözlərimin əyani sübutudur. Bu, çox ciddi siyasi sənəddir, ikitərəfli əlaqələrimizin səviyyəsinin mahiyyətini əks etdirir və doğrudan da, əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə qaldırıbdır.

Mən Sizə məlumat verdim ki, bizim Avropa İttifaqına üzv ölkələrlə buna bənzər 7 müqavilə, anlaşma, bəyannamə vardır. Artıq Avropa İttifaqına üzv ölkələrin 8-i ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlər imzalanıbdır.

Bu Bəyannamədə əlaqələrimizin müxtəlif aspektləri öz əksini tapır. Eyni zamanda, bizim üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti və münaqişənin həlli yolları da göstərilir. Bu mövqeyə, bu dəstəyə görə Sizə minnətdaram. Bəyannamədə göstərilir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Helsinki Yekun Aktı, ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı əsasında öz həllini tapmalıdır. Bu, yeganə mümkün həll variantıdır. Bütün münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır.

Uzun illərdir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi - Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 bölgə erməni işğalı altındadır. Bu bölgələrdə xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bu siyasət nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Torpaqlarımızın 20 faizi işğal altındadır və Ermənistan bu işğalçı siyasətini davam etdirir, beynəlxalq vasitəçilərin çağırışlarına məhəl qoymur. Bu məsələ ilə məşğul olan Minsk qrupunun həmsədrləri - Rusiya, Fransa və Amerika Birləşmiş Ştatları ən yüksək səviyyədə bəyan etmişlər ki, bu münaqişə ilə bağlı status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi, təbii ki, işğala son qoyulması deməkdir. Biz bunu istəyirik, beynəlxalq birlik də bunu istəyir və əminəm ki, biz istədiyimizə nail olacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və beləliklə, beynəlxalq hüquq və ədalət zəfər çalacaqdır.

Bəyannamədə digər sahələr də öz əksini tapır. Bizim iqtisadi sahədə çox uğurlu əməkdaşlığımız var. Deyə bilərəm ki, bu gün biz həm heyətlər səviyyəsində, eyni zamanda ikitərəfli formatda daha çox iqtisadi əməkdaşlığı müzakirə etmişik. Burada gözəl potensial var. Ölkələrimiz arasında ticarət dövriyyəsi artır. Eyni zamanda Çex banklarının Azərbaycanda müvafiq layihələrinin icrasına böyük miqdarda vəsait ayrılır. Buna görə də minnətdarıq. Çünki bu vəsait imkan verir ki, Azərbaycanda müxtəlif infrastruktur layihələri icra edilsin, ilk növbədə nəqliyyat sektorunda. Bu barədə də biz geniş fikir mübadiləsi apardıq və əlbəttə ki, biz əldə edilmiş nəticələri yüksək qiymətləndiririk. Eyni zamanda biz gələcəyə baxmalıyıq. Əminəm ki, sabah keçiriləcək Çexiya-Azərbaycan biznes forumu ikitərəfli iqtisadi əməkdaşlığın dərinləşməsi üçün mühüm hadisə olacaqdır.

Qarşılıqlı investisiyaların qoyuluşu məsələləri əhəmiyyət kəsb edir. Həm Çex Respublikası, həm Azərbaycan xarici sərmayə üçün çox məqbul ölkələrdir. Xarici sərmayələr yüksək səviyyədə qorunur. Çalışmalıyıq ki, bizim iş adamlarımız da bir-birini daha da yaxından tanısınlar və əməkdaşlıq dərinləşsin. Bu yaxınlarda hökumətlərarası komissiyanın iclası da keçirilmişdir. Bu da çox önəmli formatdır. Beləliklə, əminəm ki, gələcək illərdə iqtisadi sahədə daha da uğurlu nəticələr olacaqdır. Bu gün artıq deyə bilərəm ki, ticarət dövriyyəsinin səviyyəsi müəyyən dərəcədə bizi qane edə bilər.

Energetika sektorunda əməkdaşlıq da, əlbəttə ki, danışıqlar mövzusudur. Azərbaycan Çexiyaya xam neft ixrac edir. Çexiyanın enerji balansında Azərbaycan nefti müəyyən bir hissəni - təxminən 30 faizi təşkil edir. Bu da çox önəmli hadisədir. Azərbaycan hazırda "Cənub" qaz dəhlizinin icrası ilə məşğuldur. Bu, nəhəng enerji layihəsidir. Bu layihənin ümumi dəyəri 45 milyard dollara bərabərdir. Burada "Şahdəniz-2" qaz yatağının ikinci fazasının işlənməsi məsələsi öz həllini tapacaq. Eyni zamanda 3 yeni qaz kəməri çəkiləcəkdir. Cənubi Qafqaz qaz kəməri - Azərbaycanı Gürcüstanla birləşdirən, TANAP - Türkiyə ərazisindən keçən və TAP - Türkiyə sərhədindən İtaliya sərhədlərinə qədər uzanan üçüncü qaz layihəsidir. "Şahdəniz-2" qaz yatağının işlənməsi ilə bərabər bu dörd nəhəng layihə "Cənub" qaz dəhlizini formalaşdırır və burada Azərbaycan öz liderlik funksiyalarını uğurla yerinə yetirir. Azərbaycan bütün bu layihələrdə investor kimi iştirak edir. Bəzi layihələrdə əsas investor kimi iştirak edir. Baxmayaraq ki, dünyada neftin qiyməti son aylar kəskin şəkildə aşağı düşüb, bu layihənin icrasında heç bir yubanma yoxdur, bütün işlər vaxtında görülür. Azərbaycan tam əmindir ki, beynəlxalq əməkdaşlıq nəticəsində bu layihə öz həllini tapacaq və beləliklə, Avropaya Azərbaycandan yeni qaz kəmərinin tikintisi təmin ediləcəkdir.

Digər sahələrdə də əməkdaşlıq üçün yaxşı perspektivlər var. Mən xüsusilə humanitar sahəni qeyd etmək istəyirəm. Azərbaycanda Çexiya mədəniyyətinə, tarixinə çox böyük maraq var. Əminəm ki, cənab Prezident, Siz və Sizinlə bərabər Azərbaycana gəlmiş nümayəndə heyətinin üzvləri bu sahə ilə də tanış olacaqsınız.

Bir daha Sizi səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, səfəriniz çox uğurlu olacaqdır.

### Çexiya Prezidenti Miloş Zemanın bəyanatı

- Hörmətli cənab Prezident.

Xanımlar və cənablar.

İcazə verin, cənab Prezident Əliyevin sözlərinə davam olaraq təkrar edim ki, Azərbaycan ixracımız baxımından bizim üçün mühüm ölkədir. Biz neftimizin təxminən 30 faizini Azərbaycandan idxal edirik. Bununla belə, Azərbaycan digər səbəblərə görə də bizim üçün yaxın ölkədir. Əhalimizin sayı, demək olar ki, eynidir. İqtisadi artım tempi kifayət qədər məqbuldur. İşsizliyin səviyyəsi isə aşağıdır. Lakin bir məsələni də qeyd etmək istərdim. Prezident Əliyev təvazökarlıq baxımından onu demədi. Azərbaycan öz öhdəliklərini yerinə yetirən ölkədir. Sizi əmin edə bilərəm ki, Azərbaycanda olan əla maliyyə durumu heç də bütün ölkələrdə yoxdur. Mənə bildirildi ki, Azərbaycan ərazisində apardığımız fəaliyyətin sığortalanmasına gəldikdə, heç bir işin pozulması və ya sığorta halı olmamışdır. Cənab Prezident, mən bunu yüksək dəyərləndirirəm. Bütün bunlar hamıya aydın olan, lakin adı çəkilməyən ölkələrlə müqayisədə Azərbaycana olan etimadı daha da artırır.

Biz, həmçinin, bir sıra iqtisadi və ticari məsələləri müzakirə etdik. Qeyd etmək istərdim ki, Çex iş adamları Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin birinci mərhələsinə uğurla sərmayə qoymuşlar. Artıq tikintinin ikinci mərhələsi başlayır. Ümidvaram ki, bu sahədə də əməkdaşlığımız uğurlu olacaq. İnfrastruktur baxımından bu layihə kifayət qədər genişmiqyaslıdır. Azərbaycanın ikinci şəhəri Gəncənin icra hakimiyyətinin başçısı şəhər nəqliyyatı, o cümlədən aşağı gərginlik tramvayları ilə bağlı Çex Respublikasına müraciət etmişdir. Çünki heç kəsin xətrinə dəyməmək üçün bildirim ki, adı çəkilməyən ölkənin verdiyi ilk təklif qəbuledilməz idi. Çexiyanın təklifi daha münasib oldu. Əlbəttə ki, işlədiyimiz ənənəvi sahələr, xüsusən də müdafiə sənayesi, eləcə də Azərbaycanın polis qüvvələri üçün istər radar, istərsə də digər silah növləri baxımından əməkdaşlığa hazırıq.

İmzalanmış sənəddə göstərildiyi kimi, biz kənd təsərrüfatı sahəsində əməkdaşlığa açığıq. Bildiyimiz qədər, bu sahədə Azərbaycan öz məhsullarının bir hissəsini ixrac edir və bu baxımdan özünü təmin edən ölkədir. Bundan əlavə, onlarla digər nümunə gətirə bilərəm. Lakin, fikrimcə, onlar haqqında biz sabah biznes forumda söhbət aça biləcəyik. Hamınızı həmin tədbirdə görməyi arzulayıram. Sabah bu haqda daha dolğun danışacaq şəxsləri qabaqlamaq istəməzdim.

Yekun olaraq, bildirmək istərdim ki, mən cənab Prezidenti Çex Respublikasına səfərə dəvət etdim. Qeyd edim ki, Prezidentin rəhbərliyi altında Çex Respublikasına da bir sıra Azərbaycan sərmayələri qoyulsa, çox şad olaram. Ölkəmizdə mehmanxanalar və kurortlar, investisiya baxımından digər münasib məkanlar var. Tam əmin ola bilərsiniz ki, Çexiyada qoyulmuş maliyyə sərmayələri özünü doğruldacaq. Çex Respublikası bu baxımdan Mərkəzi Avropada kifayət qədər təhlükəsiz yerdir. Təbii ki, digər tədbirlər çərçivəsində də görüşəcəyik. Lakin Praqada gələcək görüşümüzü səmimiyyətlə arzulayıram. İnanıram ki, bu görüş baş tutacaq və həmin görüşdə atılmış yeni iqtisadi addımları qeyd edə biləcəyik.

**AZƏRTAC-ın materialları əsasında**

## Respublika Veteranları Təşkilatı Avropa Parlamentinin Azərbaycan barədə qərəzli qətnaməsinə etiraz edir

Avropa Parlamentinin 2015-ci il sentyabrın 10-da qəbul etdiyi qərəzli antiAzərbaycan qətnaməsinə etiraz olaraq, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Rəyasət heyətinin sentyabrın 15-də keçirilən iclasında bəyanat qəbul edilib.

Bəyanatda deyilir: "Avropa Parlamentinin Azərbaycan ilə bağlı irəli sürülən iddiaların yanlış və qərəzli şəkildə məlumatlar əsasında hazırlandığı qətnamə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən narazılıqla qarşılanıb, ciddi etiraz və təəssüf hissi yaradıb. Avropada demokratiyanın dayaqlarından biri kimi tanınan bu qurumun belə anlaşılmaz addım atması bütövlükdə regionda və dünyada demokratik dəyərlərə və ədalət prinsiplərinə vurulan zərbədir. Avropa Parlamenti müdriklik edib Avropa İttifaqının üzvü olan və olmayan ölkələrə bərabər və ədalətli münasibət göstərmək əvəzinə, Azərbaycan haqqında həqiqətə uyğun olmayan bəyanatları ilə radikal, pozucu siyasət yeritdiyi açıq-aşkar görünür".

Bəyanatda daha sonra qeyd edilir ki, Avropa Parlamentinin Azərbaycan əleyhinə qəbul etdiyi qətnamə, son illər Avropanın bəzi ölkələrində Azərbaycana qarşı münasibətin dəyişməsi respublikamızın qazandığı böyük nailiyyətlər, xüsusilə, ilk Avropa Oyunlarının ölkəmizdə böyük uğurla keçirilməsi bəzilərində qısqanclıq, paxıllıq hissi yaradıb. Bu da Azərbaycana qarşı qərəzli mövqeyin ortaya qoyulmasına gətirib çıxarıb. Bu qısqanclıq, paxıllıq xüsusilə erməni diasporunun təsirinin nəticəsidir.

Qətnamədə, həmçinin, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycana nümayəndə heyəti göndərməsi təklif edilir. Ancaq nədənsə 23 ildən artıqdır ki, Avropa Parlamenti keçirdiyi iclaslarında BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnaməyə Ermənistan tərəfindən məhəl qoyulmamasından, Ermənistandan deportasiya edilmiş, Qarabağdakı doğma yurd-yuvalarından qovulmuş yüz minlərlə azərbaycanlının hüquqlarından bircə dəfə də olsun danışmayıb. Qarabağda rəsmi fəaliyyət göstərən terrorçu erməni separatçılarının qətlə yetirdiyi günahsız, müxtəlif fiziki və mənəvi zorakılıqlara məruz qalmış insanların hüquqları yada düşməyib.

Bəyanatda daha sonra deyilir: "Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq, Avropa Parlamentinin Azərbaycan əleyhinə qəbul etdiyi 2015-ci il 10 sentyabr tarixli qərəzli və qeyri-obyektiv antiazərbaycan qətnaməsini birmənalı şəkildə rədd edir və Avropa ictimaiyyətini ikili standartlara xidmət edən bu siyasətə qarşı etiraz bildirməyə səsləyirik. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını, ölkəmizin ərazi bütövlüyünün və Qarabağdan kütləvi surətdə məcburi köçürülmüş bir milyondan artıq sakinlərin pozulmuş hüquqlarının təmin olunmasını tələb edirik.

Hesab edirik ki, Avropa Parlamentinin müstəqil və suveren dövlətin daxili işlərinə qarışması, ona qarşı təhqir və təzyiq məqsədilə qəbul olunmuş hər hansı sənəd qəti şəkildə qəbuledilməzdir".

## Azərbaycan Respublikasının Müdafiə nazirinə

Hörmətli cənab Müdafiə naziri.

"N" hərbi hissəsində xidmət edən əsgər valideynləri adından Sizə öz dərin ehtiramımızı və minnətdarlığımızı bildiririk. Gənc əsgərlərin andiçmə mərasimində gördüklərimiz hər birimizi qürurlandırdı.

Ölkəmizin müdafiə sisteminə rəhbərliyin dəyişdiyi son iki ilə yaxın müddət ərzində orduda baş verən əsaslı yeniliklər təkcə ordu ilə bağlı olan insanların deyil, ümumən hər bir vətəndaşın ordumuzun qüdrətinə inamını artırıb.

Bir həqiqət hamıya yaxşı məlumdur ki, Azərbaycan Ordusunun əldə etdiyi bütün uğurlar möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna yüksək diqqət və qayğısının nəticəsidir. Bu diqqət və qayğı bütün sahələrdə olduğu kimi, əsgər və zabitlərin sosial-mənzil şəraitinin yaxşılaşdırılmasından tutmuş, maddi-texniki bazanın gücləndirilməsinə qədər hər yerdə özünü parlaq şəkildə göstərir.

Son günlər keçirilən irimiqyaslı təlimlər ordumuzun gücünü, qüdrətini daha da artırır. Bu uğurlar hər birimizi ürəkdən sevindirir.

Biz valideynlər hərbi hissələrdə vəziyyətin yaxşılığa doğru kökündən dəyişdiyinin və islahatların davam etdiyinin şahidi olduq. Komandanlığın və zabit, gizir heyətinin əsgərlərə olan münasibəti əsl valideyn münasibətidir. İmkan tapıb andiçmə mərasiminə gələ bilməyən valideynlərin əsgər övladları üçün hərbi birləşmə rəhbərliyi tərəfindən çox yüksək səviyyədə təşkil olunmuş bayram süfrəsi və musiqi töhvəsi yaddaşımızdan heç zaman silinməyəcək.

Azərbaycan Ordusunun qazandığı bütün uğurlara görə bir daha möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə, ordu rəhbərliyinə, generallarına, zabit heyətinə, qəlbi vətənpərvərliklə döyünən cəngavər əsgər övladlarımıza valideyn ehtiramımızı və minnətdarlığımızı çatdırırıq. Gündən-günə qüdrəti artan ordumuzun qətiyyəti sayəsində işğal olunmuş torpaqlarımızın azad olunacağı günə çox qalmayıb.

Bu günlərdə başa çatan Komanda Qərargah Hərbi Oyunları hər birimizin ordumuza inamını daha da artırdı.

Ordumuza və onun rəhbərliyinə inanırıq!

**Hörmətlə:**
**əsgər valideynləri adından**
**Nəsibəli MAYILOV,**
**Gülnaz HƏSƏNOVA,**
**Tofiq VƏLİYEV,**
**Cəmşid HACIYEV**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə Nazirliyində ABŞ müdafiə katibinin nümayəndəsi ilə görüş keçirilib



***Sentyabrın 18-də Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov ölkəmizdə səfərdə olan ABŞ müdafiə katibinin Rusiya, Ukrayna və Avrasiya üzrə köməkçisinin müavini xanım Evelin Farkas ilə görüşüb.***

Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, ölkələrimiz arasında hərbi əlaqələr, o cümlədən təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "TurAz Qartalı - 2015" birgə təlimləri başa çatıb

***Avqustun 22-dən başlayan Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz Qartalı - 2015" birgə taktiki təlimləri sentyabrın 18-də sona çatıb.***



Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov və Türkiyə Hərbi Hava Qüvvələrinin nümayəndəsi polkovnik Nihat Çırakoğlunun iştirakı ilə təlimlərin yekunlarına həsr olunmuş tədbirdə uçuş və texniki heyətin, aviasiya vasitələrinin fəaliyyəti təhlil olunub, əldə olunan nailiyyətlər diqqətə çatdırılıb, planlaşdırılan birgə işlər müzakirə edilib.

Döyüş təyyarələrinin taktiki-texniki xüsusiyyətlərinin üstünlüklərindən istifadə etməklə uçuşlar keçirən, verilən bütün tapşırıqları peşəkarlıqla icra edən pilotların göstərdikləri nəticələr komandanlıq tərəfindən yüksək qiymətləndirilib.

Bildirilib ki, davamlı olaraq Hərbi Hava Qüvvələrinin birgə təlimlərinin keçirilməsi hər iki ölkənin pilotlarının bacarıq və praktiki vərdişlərinin artmasına, müştərək fəaliyyətlərin planlaşdırılmasına, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarının öyrənilməsinə və digər tapşırıqların yerinə yetirilməsinə imkan yaradacaqdır.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# AŞPA-nın məruzəçisi cəbhə bölgələrində olub

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) siyasi işlər və demokratiya komitəsinin Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Robert Uolter sentyabrın 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə görüşdə cəbhəboyu zonaya, xüsusilə təmas xəttinə səfər edərək yerli əhali və şəxsi heyətlə görüşmək niyyətində olduğunu bildirib.***





R.Uolterin vəziyyətlə yerində yaxından tanış olmaq xahişi müsbət qarşılanaraq təhlükəsizliyi təmin olunmaqla Müdafiə Naziriliyinin nümayəndələrinin müşayiəti ilə helikopterlə cəbhə bölgəsinə aparılıb.

Səfər zamanı R.Uolter Bərdə, Tərtər, Ağdam bölgələrində olub, qoşunların təmas xəttində, ön səngərlərdə şəxsi heyətlə görüşüb, onların sosial-məişət problemləri ilə maraqlanıb və qarşı tərəfi vizual müşahidə edib.

Erməni silahlı bölmələri tərəfindən daim atəşə məruz qalan Tərtər rayonunun Qapanlı kənd sakinləri ilə görüşdə son günlər düşmən tərəfinin vəziyyəti daha da gərginləşdirərək minaatanlardan və iriçaplı silahlardan yaşayış məntəqələrini atəşə tutması faktı qonağın diqqətinə çatdırılıb. O da bildirilib ki, hətta bir neçə gün əvvəl kənddə keçirilən toy mərasiminin atəşə tutulması nəticəsində iki qadın və bir uşaq güllə yaraları alıb.

R.Uolter səfər zamanı əldə etdiyi məlumatlardan yararlanacağını bildirib və problemin beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həll olunacağına əminliyini ifadə edib.

Qonaq müxtəlif istiqamətlərdə ön səngərlərdə döyüş tapşırığı yerinə yetirən hərbi qulluqçularla görüşlərdə əsgər və zabitləri dinləyib, onların suallarını cavablandırıb, eləcə də onun özünü maraqlandıran məsələlərə cavab alıb.

Bölgələrə səfəri başa çatdıqdan sonra R.Uolter Bakıya qayıdıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 sentyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 113 dəfə pozub.

Erməni silahlı bölmələri İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimizi atəşə tutub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Novruzlu, Sarıcalı, Kəngərli, Yusifcanlı, Şıxlar, Mərzili, Cəvahirli, Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 163 atəş zərbəsi endirib.

***18 sentyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 91 dəfə pozub.

Erməni silahlı bölmələri Noyemberyan rayonunun Barekamavan kəndində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu Qaymaqlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Çaylı, Qızıloba, Ağdam rayonunun Novruzlu, Kəngərli, Şıxlar, Cəvahirli, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 146 atəş zərbəsi endirib.

# Məktəblilər "TurAz Qartalı - 2015" təlimlərinin qonağı olublar

***Məktəblilər Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, iki ölkənin Hərbi Hava Qüvvələrinin birgə "TurAz Qartalı - 2015" taktiki təlimlərində iştirak edən hərbi pilotların qonağı olublar.***



Qırıcı, bombardmançı, hücum, hərbi-nəqliyyat təyyarələri, eləcə də təlimlərdə iştirak edən döyüş-nəqliyyat, axtarış-xilasetmə helikopterləri ilə tanış olan məktəblilər maraqlandıqları mövzularda hərbçi pilotlara suallar veriblər.

Təlimlərdən, xidmətlərindən danışan hərbçi şahinlər idarə etdikləri döyüş maşınları barədə şagirdlərlə maraqlı söhbətlər edərək yiyələndikləri peşənin sirlərini bölüşüblər.

Məktəblilər bəzi təlim proseslərini izləyib və hərbi pilotlarla xatirə şəkilləri çəkdiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Riçardas Lapaytis:

## Erməni işğalçılarının iyirmi ildən çoxdur pozduğu ədaləti bərpa etmək lazımdır

Bir gün oturub iyirmi ildən çoxdur ərazisinin 20 faizini, Azərbaycanın ən gözəl guşəsini, onun döyünən qəlbini - Dağlıq Qarabağı itirən azərbaycanlıları düşündüm. Düşündüm ki, Şuşa işğal olunub, xeyli memarlıq abidəsi, mədəni irs və folklor nümunələri zəbt edilib.

Bu sözləri öz bloqunda litvalı hərbi jurnalist Riçardas Lapaytis yazıb.

Jurnalist təəssüf hissi ilə qeyd edir ki, Azərbaycanın gənc nəsli Dağlıq Qarabağın dilbər guşələri barədə yalnız kitablardan və böyüklərin danışdıqlarından bilir. O, hər il cəbhə zonasına gedir, aylarla orada yaşayır, vəziyyətin daha ağır olduğu Həsənqaya və Qapanlı kəndlərinə baş çəkərək, Füzulidən Əlibəyliyə qədər gözüyumulu gedib-gəlir.

R.Lapaytis yazır ki, regionu çox gəzib-dolaşıb və azərbaycanlı qaçqınlardan soruşub: "Ermənilərin işğalı altında olan doğma yurd-yuvalarından uzaqda özlərini necə hiss edirlər?" Onların cavabı litvalı jurnalisti heyrətləndirib: azərbaycanlı qaçqınlar yalnız yer üzündə sülhün bərqərar olması üçün dua edirlər, doğma ocaqlarına qayıtmağa çalışırlar. Çoxu hesab edir ki, ermənilərin özü yaranmış vəziyyətdən, qeyri-müəyyənlikdən, qorxudan bezib.

Hərbi jurnalist vurğulayır ki, bunun özü elə ən böyük tolerantlıq nümunəsidir. R.Lapaytis yazır: "Bu hadisə Litvada baş versəydi, biz bütün dünyaya car çəkərdik". Jurnalisti təəccübləndirən budur ki, müharibə şəraitində yaşayan insanlar təmkinlərini pozmur, bilirlər ki, haqq onların tərəfindədir. R.Lapaytis əmindir: əgər belədirsə, ədalət zəfər çalacaq.

Litvalı jurnalist Qərb diplomatlarını Qarabağ münaqişəsi ilə bağlı qəti tədbirlər görməyə çağırır.

O bəyan edir ki, azərbaycanlılarla həmrəydir. BMT-nin qəbul etdiyi dörd qətnaməyə əsaslanıb, işğalçının iyirmi ildən çoxdur pozduğu ədaləti bərpa etmək lazımdır. Jurnalist yazır ki, bir milyon qaçqın qorxunc rəqəmdir. Üstəlik, Ermənistana qarşı hər hansı sanksiya da yoxdur.

R.Lapaytis yazısının sonunda Azərbaycan xalqına son dərəcədə mütəşəkkil olmağı arzu edir.

**AZƏRTAC**

*Ön xətdən reportaj*

# Düşmən həmişə layiqli cavab alır

***Cəbhədə düşmənlə təmas xəttində vəziyyət yenə gərginləşib. Elə gün olmur ki, bütün istiqamətlərdə atəşkəs bir neçə dəfə pozulmasın. Düşmən təkcə mövqeləri deyil, sərhədyanı kəndləri də müntəzəm olaraq atəşə tutur.***

Bu günlərdə ön xətdə yerləşən hərbi hissələrin birində oldum. Zabit Sahib Şahverdiyevin üzündə gərginlik aydın sezilirdi. Lap çoxdan - zabit kimi xidmətə başladığı dövrdən tanıyıram onu. Xeyli vaxt idi ki, görüşmürdük. Ətraflı hal-əhvaldan sonra xidmət yerindəki otağına keçdik. Telefonlar susmaq bilmirdi. Gələn zənglərin çoxu ön xətdəki gərgin vəziyyətlə bağlı idi. Təmkinlə məruzəni dinləyir, xəttin o başında olan komandirlərə gərəkli tapşırıqlar verirdi. Arada imkanlaşdırıb gecə baş verənlərlə bağlı bildirdi ki, ön xətdə duran əsgərlər həmişə ayıq-sayıqdırlar. Düşmənə cavab zərbələri endirilir. Buna baxmayaraq, işğalçılar odsaçan mərmilərdən istifadə edib yaxınlıqdakı kəndi atəşə tutub, sakinlərdən birinin evi yanıb.



Əlibəylilərin taleyinə tarixi düşmənlərlə qonşuluqda yaşamaq yazılıb. Bundan qaçmaq da mümkün deyil. Düşmən sakinlərin mülkünə, təsərrüfatına nə qədər ziyan vursa belə, onlar yenə ev-eşiklərini tərk etmirlər . Qarabağ müharibəsi gedən qanlı-qadalı illərdə də bu kəndlərin qeyrətli, mərd oğulları doğma yerləri mətinliklə müdafiə edib, indi də Azərbaycan Ordusuna güvənirlər. Hər dəfə atəşkəsi pozan düşmən döyüşçülərimizdən layiqli cavab alır.

İki dövlət arasındakı sərhəddəyik. Zamanında burda ağır döyüşlər gedib. Mənfur ermənilər hakim yüksəklikləri ələ keçirmək üçün nələrə əl atmayıblar. Amma tovuzlular möhkəm dayanaraq düşmənin irəliləməsinə aman verməyiblər. Bu gün həmin mövqelər Azərbaycan Ordusunun nəzarətindədir.

Bizi postda baş leytenant Fəxrəddin Əliyev qarşıladı. Gün ərzində dayaq məntəqəsində heç bir hadisə baş vermədiyini bildirdi. Zabit beş yaşı olanda ata yurdunu - Şuşanı tərk etməyə məcbur olduqlarını söylədi. O yerlər yadında çox az qalıb. Onun hərbi peşəyə yiyələnməsinə bir növ maraq oyadan da doğma torpaqlarının düşmən əsarətində olmasıdır. Müharibə şəraitində olan ordumuzda zabit kimi xidmət etməklə gələcəkdə torpaqlarımızın yağı tapdağından azad edilməsində yaxından iştirak etmək, vuruşmaq istəyib.



Taqım komandiri əsgərlərin döyüş hazırlığından, onların bu vərdişləri yüksək səviyyədə mənimsəməsindən çox razıdır. Deyir ki, postda duran əsgərlərin hər biri döyüş tapşırığını yüksək səviyyədə bilməklə yanaşı, düşmənə də layiqli cavab verirlər.

Zabit Ramil Kərimov da peşəkar, təcrübəli komandirdir. O bildirdi ki, burada hər bir əsgərin üzərinə böyük məsuliyyət düşür. Bunu onlar da yaxşı dərk edir. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elnur Musayev on ilə yaxındır ki, xidmətini burada davam etdirir. O deyir ki, ermənilər postlarımızı hər gün atəşə tuturlar. Hazırladığımız istehkam qurğuları sayəsində biz düşmənə qarşı inadla döyüşə bilirik, mövqelərimizi mətinliklə qoruyuruq.

Ağsulu Sahib Ağayev, hacıqabullu Əlimurad Muradov, ağcabədili Alı Əliyev, cəlilabadlı Atabəy Nəhmədov, sumqayıtlı Elşən Məmmədov, masallılı Əsgər Heybətov və başqaları da intizamlı, qorxmaz əsgərlərdir.

Biz döyüş postundan ayrılanda əsgərlər bildirirlər ki, onlar hər zaman düşmənə layiqli cavab verməyə hazırdırlar. Təki torpaqlarımız işğaldan azad olunsun, ərazi bütövlüyümüz bərpa edilsin, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz doğma ocaqlarına dönsünlər. Bu, elə hər birimizin istəyidir...

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

## Tibb xidməti

# "Tibbi xidmət göstərilməsi üçün bütün imkanlar mövcuddur"

***Silahlı Qüvvələrimizin son illərdə qazandığı uğur və nailliyyətlərdən danışarkən hərbi təbabətimizdəki irəliləyişləri də böyük qürur hissiylə qeyd edə bilərik. Həm Silahlı Qüvvələrin Baş Klinik Hospitalı, həm də digər hərbi tibb müəssisələri müasir tələblərə cavab verən tibbi avadanlıqlarla təmin olunub***

Toroko-obdominal cərrahiyyə bölməsində tibb xidməti polkovnik-leytenantı Subəddin Quliyevlə səmimi söhbət zamanı öyrəndim ki, o, 1992-ci ildən həkim kimi ordumuzun sıralarında xidmət edir: uzun illər müxtəlif bölgələrdə, 2008-ci ildən isə Baş Klinik Hospitalda toroko-obdominal cərrahiyyə bölməsinin rəisidir. Həkim dövlətin tibb sahəsinə olan diqqətindən, tibbin sürətli inkişafından ürəkdolusu danışdı. Həyatını belə xeyirxah və nəcib bir işə həsr etməsindən qürur hissi ilə söz açdı: "Həkimlik sənəti qəhrəmanlıq, hünər deməkdir. Həkimin gücü onun ürəyindədir, müalicənin ən əsas hissəsi məhəbbətdir, inamdır. Hazırda bizim bölmə ən müasir tibb avadanlıqları ilə təmin olunub, tibb



heyəti tam komplektləşdirilib. Xəstə və yaralılara tibbi xidmət göstərilməsi üçün bütün imkanlar mövcuddur. Hərbçilərin və onların ailə üzvlərinin, həmçinin, mülki vətəndaşların sağlamlığı keşiyində dayanmağa daim hazırıq".

Hospitalda müalicə olunan xəstələrə də baş çəkdik. Təbib Səfərov Cəlilabad rayonundan hərbi xidmətə çağırılıb. "N" hərbi hissəsinin əsgəridir. Ermənilərin atəşkəsi pozması zamanı yaralanıb.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Həmid Əhmədov da düşmənin atəşkəsi pozması zamanı iriçaplı silahlardan açılan atəş nəticəsində yaralanıb. Həmid söhbət zamanı onlar üçün yaradılan müasir müalicəvi şəraitə, xüsusi diqqətə və qayğıya görə Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirdi. Həkimlərin, tibb bacılarının diqqətindən, qayğısından danışdı, tezliklə sağalıb xidməti yerinə qayıtmaq istəyini ifadə edərək son damla qanını belə Vətəni üçün əsirgəməyəcəyini dedi.

Baş tibb bacısı Esmira Hacıyeva 15 ildən çoxdur bu bölmədə işləyir. Öyrənirəm ki, Esmira xanım təcrübəli tibb bacısıdır, işinin öhdəsindən bacarıqla gəlir. Onun xəstələrlə mehriban davrandığının şahidi olduq. Söhbət əsnasında məlum oldu ki, Esmira xanım Qərbi Azərbaycanda dünyaya göz açıb. 1988-ci ildə ermənilər tərəfindən doğma yurd-yuvalarından qovulub. Qəlbini Vətən həsrəti göynədirdi, hər kəlməsindən düşmənə nifrət yağırdı.

Günel Əhmədova da bölmənin bacarıqlı tibb bacılarındandır. Şəfa ocağında işlədiyi üç ildə kollektivin hörmətini qazanıb. Xəstələrlə nəvazişlə davranır, dərdlərinə şərik olur, yaralarına məlhəm qoyur. Onun da taleyinə Vətən həsrəti, qaçqınlıq yazılıb. Günelin xəstələrə olan diqqətini gördükdə müasir tibb bacısı peşəsinin qurucusu Florens Naytingeylin bu sözləri yadıma düşür: "Tanrının ən dəyərli hədiyyəsi olan həyat çox vaxt tibb bacısının əllərinə həvalə olunmuşdur".



Toroko-obdominal cərrahiyyə bölməsində gördüyümüz şərait və tibbi xidmət onu deməyə əsas verir ki, hərbçilərimizin sağlamlığı etibarlı əllərdədir.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Nümunəvi xidmət

# Davamlı müşahidə

***Son günlər cəbhədə atəşkəs rejimi intensiv olaraq pozulur. Gün ərzində mövqelərimizin və yaxınlıqdakı yaşayış məntəqələrimizin dəfələrlə atəşə tutulması bir daha onu göstərir ki, bədnam qonşularımız öz çirkin niyyətlərindən asanlıqla əl çəkməyəcəklər. Bu yaxınlarda olduğum cəbhə xəttində bunu bir daha yəqin etdim. Söhbət etdiyim zabitlər dedilər ki, ermənilər atəşkəsi pozmağa nə qədər cəhd göstərsələr də, layiqli cavab alırlar. Düşmənin atdığı güllələr cavabsız qalmır. Gecə-gündüz səngərlərdə ayıq-sayıq dayanan oğullarımız ermənilərin bir də mövqelərimizə yaxın düşməsinə imkan vermirlər.***



...Mayor Səlim Xancanovla ön sıradakı postlardan birinə gəldik. Zabit F.Əliyev bildirdi ki, postlarda fasiləsiz müşahidə aparılır. "Qarşıdakı düşmən bir an da nəzarətsiz qoyulmur. Ən məhdud görmə şəraitində belə əsgərlər müşahidəni davam etdirirlər".

Dərin və geniş səngərə daxil oluruq. Müşahidənin gecə etibarlı təşkili üçün səngərdə müxtəlif yerlərdə maneələr quraşdırılıb. Bütün növ atıcı silahlar üçün atəş sektorları yaradılıb. Hər bir atəş sektorundan qarşıdakı ərazi çox aydın görünür. Bu, belə də olmalıdır. Əgər belə olmasa, qarşıdan hücum edən düşməni məhv etmək imkanı azalar.

Üstü bağlı müşahidə məntəqəsi həm ağır silahların atəş zərbələrindən etibarlı qoruyur, həm də düşmənə cavab atəşi üçün ən vacib və etibarlı yer sayılır. Burada müşahidəçi əsgər Əsgər Heybətov qarşıda düşmənin yerləşdiyi əsas postları və atəş nöqtələrini göstərərək deyir ki, ermənilər həmin yerlərdən onları atəşə tez-tez tuturlar. "Onlar da dəqiq cavab atəşi ilə düşməni susdururlar".

Məlum olur ki, müşahidəçi əsgər Ə.Heybətov yarım ildir ki, Masallı rayonundan ordu sıralarına çağırılıb. Bir neçə aydır burada xidmət edir. Silahlardan sərbəst istifadə etməyi bacarır. Təcrübəli komandirlərinin sayəsində taktiki döyüş üsullarına mükəmməl yiyələnib. Müşahidənin necə aparmaq lazım olduğunu da qısa müddətdə mənimsədiyini deyir.

Müşahidə məntəqəsində xidmətin yüksək səviyyədə təşkili üçün lazımi əyani vəsaitlər də var. Müşahidə cihazları, ərazinin sxemi, nömrələnmiş oriyentirlər ilə birlikdə atəş kartoçkası, müşahidə məlumatlarını qeyd etmək üçün jurnal, operativliyi təmin etmək üçün rabitə vasitəsi də var. Müşahidənin bu cür təşkili mütləq lazımdır. Çünki hücum edən düşməni vaxtında aşkar edib zərərsizləşdirmək döyüşçülərimizin qarşısında duran ən başlıca məqsədidir.

Bu gün intensiv müşahidənin təşkilində əldə olunan nəticələrdən razı qaldıqları məlumdur. Belə ki, dəfələrlə düşmənin hücuma keçdiyini vaxtında aşkar edib və qarşısını almağa müvəffəq olublar. Əminik ki, bundan sonra da döyüşçülərimiz ermənilərin istənilən hücumunun qarşısını qətiyyətlə alacaqlar.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** **Respublikada mövcud olan dini konfessiyalar. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsi kimi.**

***Məqsəd:*** *- şəxsi heyətə Azərbaycanda mövcud olan dini konfessiyalar haqqında məlumat vermək, etiqad azadlığı anlayışını aydınlaşdırmaq. Hərbi qulluqçuları Azərbaycan Respublikasında din-dövlət münasibətlərinin tənzimlənməsi qaydaları ilə tanış etmək; şəxsi heyəti tolerantlıq, dini dözümlülük, islamı dəyərlərə bağlılıq ruhunda tərbiyə etmək.*

**Suallar:**
**1. Respublikada mövcud olan dini konfessiyalar. Azərbaycanda din və dövlət münasibətləri.**
**2. Azərbaycan Respublikası dini tolerantlıq nümunəsi kimi dünyaya örnəkdir.**

*Respublikada mövcud olan dini konfessiyalar. Azərbaycanda din və dövlət münasibətləri*

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və bir çox başqa dini inanclar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmiş, dini həyatın özəlliyini şərtləndirmişdir.

Bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Müasir dünya üçün tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Bu baxımdan Azərbaycan Respublikası bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir.

İslamın Azərbaycana gəlişi ilə dini dözümlülük ənənələri daha da möhkəmlənmişdir. Müsəlman tolerantlığının əsasını Qurani-Kərimin surə və ayələri təşkil edir: "Dində məcburiyyət yoxdur". Tarixçilərin dediklərinə görə, VII-VIII əsrlərdə müsəlmanlar yəhudilik, xristianlıq və zərdüştliyin tərəfdarlarına qarşı ehtiram və dözümlülük göstərmişlər.

Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm əlaqələrin formalaşmasında onların tale ümumiliyi amili də böyük rol oynamışdır. Tarix boyu Azərbaycanda yaşayan xalqlar dəfələrlə qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş və yaranmış şərait onları, dünya görüşlərindəki fərqlərə baxmayaraq, yaxınlaşmağa vadar etmişdir.

Sovet İttifaqının dağılması regionda dini dözümlülük ənənələri üçün əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı, əsl dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan erməni təcavüzü yaradırdı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dini zəmində baş verməsə də, Ermənistanın dini lideri I Vazgen praktiki olaraq separatçı hərəkatı qızışdıran şəxslərdən biri olmuşdur.

Barışmaz erməni separatizminin ideoloqları hər imkandan istifadə edərək, Qərbə və Rusiyaya belə bir mif təlqin etməyə çalışırdılar ki, güya Azərbaycandan "islam təhlükəsi" gözlənilir. Digər tərəfdən, Azərbaycanda anti-müharibə və hətta ermənipərəst meyillərin yayılması üçün bəzi qüvvələr respublika əhalisi arasında xristianlaşdırılma aparmağa (dırnaqarası xristian yönümlü təriqətləri yaymağa) çalışırdılar. Şübhəsiz ki, belə hərəkətlər dinlərarası dialoqun möhkəmlənməsinə xidmət etmirdi. Lakin bu hadisələr respublikadakı dini konfessiyalar arasında olan münasibətlərə həlledici mənfi təsir göstərə bilmədi. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu münasibətlər daha da yaxşılaşdı. Şübhəsiz ki, dözümlülük ruhunun qorunub saxlanılmasında müsəlman ruhanilərinin də müəyyən xidmətləri var. Müasir Azərbaycan dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir.

Müasir Azərbaycan Respublikası çoxmillətli və çoxdinli bir ölkədir. Bu ölkənin milli siyasəti müxtəlif millət, etnik qrup və dini azlıqların birgə yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilib.

Azərbaycan Respublikasının Əsas Qanunu - Konstitusiyasının 25-ci maddəsinin III bəndinə görə "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".

Konstitusiyanın sözügedən maddəsindən göründüyü kimi, milli və ya dini azlığın nümayəndəsi olmasından asılı olmayaraq, Azərbaycan vətəndaşı olan hər bir kəs eyni hüquqlara malikdir.

Azərbaycan Respublikasında dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində də müstəqillik əldə edildikdən keçən son illər ərzində dövlət çox mühüm və ciddi addımlar atmışdır. 20 avqust 1992-ci ildə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmiş və zaman keçdikcə şəraitə uyğun olaraq, həmin qanuna 1996, 1997, 2001, 2002, 2005 və 2009-cu illərdə müvafiq düzəlişlər edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında dini etiqad azadlığının Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq surətdə həyata keçirilməsi üçün təminatlar yaradır, dini qurumların statusunu, hüquq və vəzifələrini müəyyənləşdirir, dini qurumların fəaliyyəti ilə bağlı yaranan münasibətləri tənzimləyir. Qanuna görə Azərbaycan Respublikasında vətəndaş hüququna malik olan "Hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir".

Azərbaycan Respublikası dövləti dini etiqad azadlığının təmin edilməsi, din-dövlət münasibətlərinin tənzimlənməsi sahəsində də bir sıra islahatların həyata keçirilməsini məqsədəuyğun hesab etmişdir. Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli 512 saylı Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranması bu istiqamətdə atılan ən mühüm addım idi. Dövlət Komitəsinin əsas vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasının dini əqidə azadlığını təmin edən 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasından, dini etiqad azadlığı ilə bağlı olan digər qanunvericilik aktlarına riayət olunmasına nəzarəti təmin etməkdən, dini qurumlarla dövlət arasında münasibətləri daha ciddi tənzimləməkdən ibarətdir.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkədə dini durumda gərginlik yaranmaması, dini ayrı-seçkilik meyillərinin milli münasibətlər səviyyəsinin yüksəlməsinə yol verilməməsi, dini mərasim adı altında müxtəlif anti-dövlət meyilli şəxs və qrupların qarşıdurma yaratmaq cəhdlərinin qarşısının alınması, ictimai təhlükəsizlik və sosial sabitliyin qorunması, din-dövlət münasibətlərinin normal səviyyədə tənzimlənməsi üçün mövcud dini duruma lazımi nəzarəti təşkil edir və bu yolda hər cür neqativ halların qarşısının alınması işində müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Azərbaycanın dinləri ölkənin indiki ərazisində yaşayan xalqlar və etnik qruplar arasında yayılmış dini cərəyanların məcmusundan ibarətdir. Azərbaycan Respublikasında müxtəlif dini konfessiyalar fəaliyyət göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər bir şəxs vicdan azadlığına malikdir. Dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir. Konstitusiyanın 18-ci maddəsinin 1-3 bəndlərində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan şəxsiyyətini alçaldan, insanlıq prinsiplərinə zidd olan dinləri yaymaq və təbliğ etmək qadağandır.

**Ümummilli lider Heydər ƏLİYEV:**

"Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir...

O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və bir çox başqa dini cərəyanlar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Hazırda Azərbaycan Respublikası ərazisində 598 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 577-si islam, 21-i qeyri-islam təmayüllü dini icmalardır. Bu gün ölkəmizdə 1300-ə yaxın məscid, 11 kilsə, 6 sinaqoq, müasir Azərbaycan ərazisində məskunlaşmış xalqların dini keçmişi ilə bağlı 500-dən artıq dini ocaq mövcuddur.

*Bəzi ənənəvi konfessiyalar aşağıdakılardır:*

Ortodoks konfessiyası, Roma-katolik konfessiyası, Protestantlıq cərəyanı, Yəhudilər.

*Qeyri-ənənəvi din və təriqətlər:*

Yehova şahidləri, Nehemiya Mədh kilsəsi, Həyatverici lütf, Beynəlxalq Krişna şüuru, Bəhai Novoapostol kilsəsi, Yevangel xristianları icması.

Azərbaycanda mövcud olan dini mərkəz və idarələr xarici ölkələrdəki müvafiq mərkəzlərlə işgüzar əlaqə saxlayır, beynəlxalq dini tədbirlərdə yaxından iştirak edirlər. Belə ki, Qafqaz Müsəlmanları İdarəsi ilə Beynəlxalq İslam Konfransı Təşkilatı və digər xarici müsəlman və qeyri-müsəlman ölkələrinin dini təşkilatları arasında sıx əlaqələr mövcuddur. Bakıdakı Rus Pravoslav Kilsələrinin Yepiskopluğu Xəzəryanı bölgələrin xristian-pravoslav kilsələrinə rəhbərlik etməklə yanaşı, ölkədaxili və ölkəxarici dini mərkəzlərlə geniş əməkdaşlıq əlaqələrinə malikdir. Azərbaycanın yəhudi icmaları "Soxnut", "Aqudit İsrail" və "Tşuva İsrail" kimi beynəlxalq təşkilatlarla, eyni zamanda ABŞ, İngiltərə və digər dövlətlərin yəhudi icmaları ilə sıx əlaqə saxlayır. Respublika ərazisində xristian və yəhudi dini tədris müəssisələri, o cümlədən pravoslav kilsələri yanında bazar günü məktəbləri, yevangel-xristian protestant icmalarının Bibliya kursları, "Həyatverici lütf" icmasının Bibliya institutu, yəhudilərin ivriti, yəhudi dini və mədəniyyətini öyrədən kurslar və s. fəaliyyət göstərir.

Azərbaycan Respublikası çoxmillətli və çoxdinli bir ölkədir. Bu ölkənin milli siyasəti müxtəlif millət, etnik qrup və dini azlıqların birgə yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilmişdir.

Təəssüflər olsun ki, son dövrlərdə radikal dini təriqətlərin geniş şəkildə yayılması Azərbaycan cəmiyyəti üçün də bir təhlükə mənbəyinə çevrilmişdir. Bəzi gənclərin radikal islam qruplaşmalarına qoşulması halları cəmiyyətimizdə dini təsəvvürlərin düzgün formalaşdırılması üçün bütün səviyyələrdə əxlaqi və dini tərbiyəyə diqqət yetirilməsinin vacibliyini göstərir.

*Azərbaycan Respublikası dini tolerantlıq nümunəsi kimi dünyaya örnəkdir*

Azərbaycan milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur. Tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş ölkəmiz bu gün də öz missiyasını uğurla yerinə yetirir. Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab etməmiş, hətta yerli əhali ilə qaynayıb-qarışmışlar. Fərqli dini konfessiya nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olmuş, bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşmış, milli, dini və irqi zəmində heç bir ayrı-seçkilik faktı qeydə alınmamışdır.

İnsan həyatına istiqamət verən dini dəyərlərdir. Din - təkcə milli dəyər deyil, ümumbəşəridir, ideologiyadır, dünyanın praktik-mənəvi fəth edilməsinin xüsusi üsuludur, mənəvi istehsalın növüdür. Bu gün dünyada baş verən "İslam partlayışı" dinin nə qədər sosial-siyasi və ideoloji əhəmiyyətə malik olduğunu büruzə verdi. Sübut olundu ki, ümumi səfərbərliyin, mənəvi birliyin yaradılmasında din fəal və intensiv, aparıcı amil ola bilər. Xaricdə İslam dünyasını birləşdirən amil burada yaşayanların müsəlman olmasıdırsa, Azərbaycan xalqını vahid ideologiya ətrafında birləşdirən tək islam dini deyil, onun zəngin mədəniyyəti, mənəvi dəyərləri, adət-ənənələridir. Tolerantlıq Azərbaycanın həqiqi, əvəzsiz, dünyanın bir çox ölkələrinin həsəd apardığı milli-mənəvi sərvətidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi "ölkəmizdə bütün dinlərin nümayəndələri özlərini rahat hiss edirlər. İslam mədəniyyətinə, islam dininə olan hörmət, eyni zamanda, bütün başqa dinlərə olan hörmətlə tamamlanır. Öz dininə hörmət edən şəxs başqa dinə də hörmət etməlidir. Dözümlülük, dini tolerantlıq sadəcə olaraq bir şüar deyil, artıq oturuşmuş bir anlayışdır, bu bizim həyat tərzimizdir. Azərbaycanda din-dövlət münasibətlərini əks etdirən dini abidələrə olan münasibətdir. Azərbaycan dövləti nəinki İslam dininə mənsub olan məscidləri, eyni zamanda digər dinlərə mənsub olan məbədləri təmir etdirir, tikdirir, bərpa etdirir. Bu, bizim dünyagörüşümüzdür. Biz belə yaşayırıq və belə yaşamağımızla özümüzə, bölgəyə və dünyaya sübut edirik ki, multikulturizm yaşayır. Bizim uğurlu inkişafımızı gücləndirən amillər məhz bunlardır".

Azərbaycan öz mədəniyyəti, tarixi, adət-ənənələri ilə fəxr etməyə layiq az sayda dövlətlərdən biridir. Tolerantlığın dövlət strategiyası olaraq əsasını ümummilli lider Heydər Əliyev qoymuşdur. Bu zəngin ənənə hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına çox mühüm diqqət və qayğı göstərir. Onun tərəfindən son 12 ildə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsi, xüsusən də, dini ziyarətgahların əsaslı təmiri və yenidən qurulmasına xüsusi diqqət yetirilmişdir. Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirmişdir.

Ölkəmizdə dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması ümummilli lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticəsidir.

Respublikamız müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə din və mədəniyyətlə bağlı çoxsaylı beynəlxalq konfranslar keçirilmiş, elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edən bu konfranslarda dini tolerantlıqla bağlı yeni müddəalar hazırlanıb təşviq edilmişdir. Bu tədbirlərə misal olaraq: "İslam sivilizasiyası Qafqazda", beynəlxalq elmi-praktik konfransı (10 dekabr 1998); Azərbaycanda fəaliyyət göstərən dini icma başçıları ilə ulu öndər Heydər Əliyevin geniş miqyaslı görüşü (16 noyabr 1999); "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" və s. göstərə bilərik.

Azərbaycan dövlətinin yürütdüyü tolerantlıq siyasətinin daha da genişlənməsi və möhkəmlənməsi, tolerantlıq mühitinin qorunub saxlanılması və təşviqi məqsədilə dövlət başçısı İlham Əliyev bir sıra mühüm tədbirlər həyata keçirmişdir. İlk olaraq 2014-cü ilin fevralında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti yaradılmışdır. Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq 14 may 2014-cü ildə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında fərman imzalamışdır.

Tolerantlığın Azərbaycan modelinin dünyada təbliği məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən "Tolerantlığın ünvanı Azərbaycan" layihəsi çərçivəsində dünyanın müxtəlif ölkələrində Azərbaycanda dini tolerantlığı əks etdirən fotoşəkillər sərgilənmiş, son olaraq bu günlərdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə Fransanın paytaxtı Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda konfrans keçirilmişdir.

2009-cu ildə Bakı şəhəri İslam Mədəniyyətinin paytaxtı elan edilmişdir. 2018-ci ildə bu ada qədim Naxçıvan şəhəri layiq görüləcəkdir. Bakıda keçirilən İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçılarının qənaətinə görə Azərbaycandakı millətlərarası və dinlərarası münasibətlər, tolerantlıq mühiti təkcə region üçün deyil, bütün dünya üçün nümunə ola biləcək səviyyədədir.

Əminliklə qeyd edə bilərik ki, xalqımızın və dövlətimizin milli-mənəvi dəyərlərə sadiqliyi nəticəsində Azərbaycan dünya mədəniyyətləri, dinləri arasında körpü rolunu oynayır və bundan sonra da oynayacaqdır.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

*Ordu və cəmiyyət*

# "Cəbhə xəttində düşmən ordumuzun gücünü daim hiss etməkdədir"

***Sentyabrın 18-də Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin şəxsi heyəti ilə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Təhlükəsizlik və Müdafiə komitəsi sədrinin müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Aydın Mirzəzadə ilə görüş keçirilib.***






Görüşü Maddi-Texniki Təminat Baş İdarəsinin rəis müavini polkovnik İslam Gəncəliyev açıq elan edərək Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğıdan ətraflı söhbət açıb. O bildirib ki, son vaxtlar Azərbaycanda bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da inamlı addımlar atılıb. "Bu gün dövlətimizin rəhbərliyi tərəfindən aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq ordumuz yetərli inkişaf uğurlarına imza atıb, hərbi hissələrin maddi-texniki təminatı əhəmiyyətli dərəcədə güclənib və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində vacib tədbirlər görülüb. Xüsusilə qeyd etmək istərdim ki, son bir ildə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə orduda aparılan islahatlar öz layiqli bəhrəsini verib. Silahlı Qüvvələrin maddi-texniki və sosial məişət-şəraitinin müasir tələblər səviyyəsinə yüksəldilməsi üçün bir sıra əhəmiyyətli məsələlər öz həllini tapıb".

"Ehtiyatda olan baş leytenantam. Bu gün burda olmaqdan çox şadam və dəvət etdiyiniz üçün minnətdaram. Ordu nümayəndələri ilə görüşlər zamanı Silahlı Qüvvələrimizin daim inkişaf etdiyinə, işğalda olan torpaqlarımızı azad etmə qüdrətinə malik olduğuna əmin oluram". Bu fikirləri Aydın Mirzəzadə deyib.

O bildirib ki, müstəqilliyimizin ilk illərində ordu quruculuğu elə də uğurlu olmayıb. "Həmin dövrdə hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi nəticəsində vahid ordu formalaşmamışdı, ordu ayrı-ayrı qüvvələrin, siyasi partiyaların silahlı dəstələri kimi fəaliyyət göstərirdi.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gəldikdən sonra diqqət yetirdiyi əsas sahələrdən biri də Silahlı Qüvvələr idi. Belə ki, əsas məsələlərdən biri qeyri-qanuni hərbi birləşmələri ləğv etmək, vahid komandanlıq yaratmaq oldu.

Eyni zamanda, ordunun maddi-texniki təminatında əsaslı dəyişikliklər edilməsinə önəm verildi. Silahlı Qüvvələr müasir silahlarla təmin edildi, kadr hazırlığı məsələsi diqqət mərkəzinə gətirildi. Nəticədə Azərbaycan Ordusu ildən-ilə qüvvətləndi, peşəkarlığı artdı və cəbhə xəttində nəzarəti əlinə aldı.

Eləcə də, müdafiə sahəsinə ayrılan vəsait artmağa başladı. İldən-ilə artan vəsait hesabına yeni silahlar alınır, cəbhə xətti möhkəmlənir, hərbi hissələrdə yenidənqurma işləri aparılır, maddi-texniki baza gücləndirilir.

Cəbhə xəttində düşmən ordumuzun gücünü daim hiss etməkdədir. Ermənistanın hərbi mütəxəssisləri bütün parametrlər baxımından Azərbaycan Ordusunun güclü olduğunu vaxtaşırı etiraf edirlər. Eyni zamanda Qarabağ probleminin həllində Azərbaycan danışıqlar yoluna üstünlük versə də, hərb variantı da daim diqqət mərkəzində olub. Bu gün ordu ilə xalq arasında güclü vəhdət var.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Orduda, eləcə də cəmiyyətin bütün sahələrində dövlət başçısının mövqeyi Azərbaycanın yüksək inkişaf xəttində olduğunu göstərir. Prezidentimizin ordu quruculuğuna dair dediyi fikirlər Azərbaycanın Dağlıq Qarabağ probleminin həllində çox qətiyyətli olduğunu göstərir. Problemin həllinin iki yolu var: həm hərbi, həm də diplomatik. Ermənistanın bu gün torpaqlarımızı işğal altında saxlaması ordumuzun gündən-günə gücləndirilməsini vacib edir. Bu səbəbdən də ölkə Prezidenti İlham Əliyev ordu quruculuğunu prioritet məsələ kimi həmişə diqqətdə saxlayır. Vaxtaşırı irimiqyaslı təlimlər keçirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə bu yaxınlarda keçirilən Komanda Qərargah Hərbi Oyunları Azərbaycan Ordusunun yüksək hazırlığını göstərdi. Azərbaycan Dağlıq Qarabağ probleminin həllində qətiyyətlidir, heç bir halda özünün ərazisini heç kəsə güzəştə getməyəcək. Erməni işğalçıları torpaqlarımızdan geri çəkilməlidir. Hər bir azərbaycanlı torpaqlarımızın azad olunacağına əmindir və ordumuza güvənir".

Görüş maraqlı müzakirələrlə başa çatıb.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MAHMUDUNDUR**



## "Bayrağımız - milli qürurumuzdur"

## Silahlı Qüvvələrin şəxsi heyəti arasında yazı müsabiqəsi

Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığı həmişə diqqət mərkəzindədir. Bu istiqamətdə müxtəlif mövzularda geniş miqyaslı tədbirlər həyata keçirilir ki, bunlar da hərbçilərin istər dünyaduyumunun formalaşmasında, istərsə də mənəvi aləminin zənginləşməsində müstəsna rol oynayır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Silahlı Qüvvələrin şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etməsi də bunun təzahürüdür. Belə bir müsabiqənin keçirilməsi Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə mənəvi-psixoloji hazırlığın daha intensiv təşkilinin təmin edilməsində vasitə olacaqdır.

Müsabiqəyə təqdim edilən yazılara Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə müəyyənləşdirilmiş komissiya tərəfindən baxılacaq, daha əhatəli, məzmunlu, bədii yazılar seçilərək qaliblər müəyyənləşəcək.

Yazı müsabiqəsi noyabr ayının 9-da yekunlaşacaq.

Müsabiqədə fərqlənənlər həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq həvəsləndiriləcək, fərqlənən yazılar "Azərbaycan Ordusu" qəzetində dərc ediləcək, həm də qaliblər Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılacaq:

I yer - 200 manat
II yer - 150 manat
III yer - 100 manat

**"Azərbaycan Ordusu"**

*Əsgərin tribunası*



# Mübariz ruhlu Vətən keşikçiləriyik

***Asudə vaxtlarımda doğma qəzetimizi oxuyarkən tez-tez əsgər məktublarına da rast gəlirdim. Bu məktublar həm marağıma səbəb olurdu, həm də ürəyimdəkiləri qələmə alıb dərc etdirmək istəyirdim. Baş leytenant Ülvi Məmmədov hərbi bölməmizə "Azərbaycan Ordusu" qəzetindən müxbirlər gələcəyini bildirəndə, istirahət otağına keçib düşüncələrimi qələmə aldım.***

Əvvəlcə özüm haqqında bir neçə kəlmə qeyd etmək istəyirəm. Hərbi xidmətə Biləsuvar rayonundan çağırılmışam. Bir ildir xidmətdəyəm, Vətənimi qoruyuram.

Uşaq yaşlarımdan əsgər olmaq arzusu ilə yaşamışam. Çünki atam, babam hər dəfə ermənilərdən, onların vəhşiliklərindən danışdıqca əsgər olub düşmənlə vuruşmaq istəyirdim. Dinc əhaliyə divan tutan, uşaqları süngüyə keçirən, hamilə qadınlara işgəncə verərək öldürən vəhşilərdən qisas almağa can atırdım. Ona görə də tez bir zamanda təmas xəttində xidmətə başlamaq, düşmənlə üzbəüz dayanıb qorxmaz döyüşçü olduğumu göstərməyə tələsirdim.

Hərbi xidmətə başlayan gündən silahımı, vəzifəmi dərindən öyrəndim. Bu gün Vətənin keşiyindəyəm. Məktubumu da cəbhə bölgəsində yerləşən hərbi hissədən yazıram. Xidmətim başa çatana qədər komandirlərimdən yeni bilikləri öyrənməyə, döyüş vərdişlərinə dərindən yiyələnməyə çalışıram.

Xidmətimin ilk günündən özümə söz verdim ki, nizam-intizamlı olacam, hərbi andıma sadiq qalacağam. Burada bizi birləşdirən ümumi bir məqsəd var: "Əzəli düşmənimiz olan mənfur ermənilərə qarşı döyüşmək, Vətəni təhlükələrdən qorumaq".

Əziz atalar, analar. Bizdən ötrü narahat olmayın. Məişətimiz, geyimimiz, yataq yerimiz yüksək səviyyədədir. Hər birimiz burda xidmət etməkdən qürurluyuq. Siz rahat olun, biz əldə silah hər an Vətənin, sizlərin keşiyindəyik. Buradakı günlərimiz xidmət yox, Vətən borcudur. Bu borc 18 ay yox, ömür boyu davam edəcək. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin döyüş əmrinə hər an hazırıq. Özüm və əsgər yoldaşlarım adından Azərbaycan xalqına salamlarımı çatdırır və demək istəyirəm ki, qarda, yağışda, istidə, soyuqda Vətənin keşiyindəyik. Çünki biz mübariz ruhlu Vətən keşikçiləriyik.

**Əsgər**
**Mehdi ƏSGƏRLİ,**
**"N" hərbi hissəsi**

*Publisistik düşüncələr*



# Oğullar böyüyür...

***Hər istək bir yolun başlanğıcıdı. Yorulub yolda qalan istəklər də olur, böyük yola qovuşanlar da. İstək dönməzdisə, dünyaduyumuna söykənibsə, "bir əli sabahların yaxasından yapışıbsa", tufanlar qopsa da, sellər-sular oynasa da, yollar "ayağın altından sürüşsə də" böyük yola çatacaqsan; zaman ləngiməsə də, nəfəsin təngiməyəcək. Min illərdi belə olub, belə də olacaq. İstək ruhun bir zərrəsi olsa bəsdi...***

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan kursantların andiçmə mərasimi mənə də könül xoşluğu verirdi. Kursantın çıxışı hamı kimi məni də duyğulandırmışdı. Çoxları kimi mənim də könlümdən belə bir sevginin, belə bir istəyin ilahi işığını gözlərimin nuruna qatmaq keçirdi. Qüdrətim çatsaydı, zamanı dayandırardım, o kəlmələrə yenidən yaşam verilməsini istərdim...

Kursantların təntənəli keçidini mən də gözlərimə, gözlərimdən könlümə köçürməkdəykən 4-5 yaşlı bir uşağın duruşu, baxışı ahənrübaya dönüb baxışlarımı özünə çəkdi. Uşaq hərbi səhra paltarı geyinmişdi. Anasının qolları arasından sıyrılıb qabağa çıxmışdı. Kiməsə məhəl qoymurdu, kimlərinsə təkidiylə geri çəkilmirdi. Kursantların nizami yerişindən vəcdə gəlmişdi uşaq. Sağ əlini alnına söykəyərək hərbi and içmiş kursantları hərbi qaydada salamlayırdı.

Nə idi bu? Marağıydımı? Televiziyada izlədiyi verilişlərdən gördüklərininmi təsiriydi? - hər nəyiydisə, o uşağın qəlbindən keçən duyğuları Vətənin istəyi bildim. O istək ki, illər sonra həmin uşağı burda elə bu sayaq nizami yerişlə keçənlərin sırasına gətirəcək. O istək ki, mayası Vətən sevgisi olacaq...

Nizami yerişlə ötüb keçənlərin sırasında işğal olunmuş rayonlarımızdan olanlar da var, şübhəsiz. Bəlkə də onları bu sıraya gətirən elə ata ocağını görmək, bunun üçün o torpaqları işğaldan azad eləmək istəyi olub?..

4-5 yaşlı uşağın qəlbindən keçən istəyin qürurunu gördüm, qətiyyətini hiss elədim. Onu da hiss elədim ki, məni məndən alan duyğuları çoxu yaşamaqdadı. O duyğular yaşatmağa qadir olan duyğularıydı. Bəşər məhz belə duyğuların möhtacıdı...

Onu da qət elədim ki, oğullar gözəl böyüyür, xalqın adına layiq böyüyür; Cavanşirlər, Xətailər, Cavad xanlar, ...böyüyür. Onların ruhunun işığından günümüzə çatan işığın özü kimi böyüyür. Həmin uşaq dönməz bir istəyin işığında körpə dünyasından üzü cavanlığa yol gəlir və o yolun bircə adı var: Vətən. O istəyin bircə yozumu var: Vətən sevgisi. O sevgi insanlıq naminə yaşam qazanmış bəşəri sevgidi...

Şərait bəzən böyük yolla qovuşdurası yolun qarşısını kəsən, səmt, axar dəyişən daha böyük amalın işığına dönən istəklər də yaradır: ürəyinin gözüylə baxanlar yaranan istəyi milli ruhun zərrəsi biçimində görür...

Vətən naminə yaşanılmış ömürlərin hamısı mənə də əzizdi. Üçü son nəfəsiməcən mənimlə sevinəcək, mənimlə qəhərlənəcək, səngərlərə - döyüşən oğullarla kəlmələşməyə mənimlə gedəcək: İlqar Əhmədov İnşaat Mühəndisləri İnstitutunun IV kurs tələbəsiydi. 1990-cı ilin 18 yanvarında sonralar "20 Yanvar" adlandırılacaq ərazidə gördüm onu. İlqarı ora müstəqillik, azadlıq istəyi gətirmişdi. Səhərisi gün şəhid oldu İlqar...

Etibar Namazov mühəndis olmaq istəyiylə ali təhsil də almışdı. Qarabağda müharibə başlayanda gündüzlər düşüncələrinin, gecələr yuxusunun ortağı olmuş istəyindən üz döndərdi - həyatının axarını dəyişən istəyinin əlindən yapışıb döyüşlərə getdi, mühəndis olmadı, Qubadlı rayonunun Qazançı kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu...

Yaşar Göyüşov da onun kimi; Yanşaq kəndi yaxınlığında şəhid oldu Yaşar...

Üçünün də riyaziyyat müəllimi olmuşdum.

Zamanında Etibarın da, Yaşarın da istəyinə xeyir-dua vermişdim. İkisini də hərbi mundir geyinəndə bağrıma basmışdım.

İkisini də döyüşlərə Vətənə oğul olmaq istəyi aparmışdı...

4-5 yaşlı o uşaq Etibarların, Yaşarların,.. istəyinin cəfakeşi olacaq, şübhəsiz. İlqarın da, Etibarın da, Yaşarın da, .. istəyi ərazi bütövlüyümüz idi...

Oğullar böyüyür, Vətən! Üçrəngli bayrağınla məsud yaşamağın naminə səndən ötrü can verməyə cümləsi qadir olan oğullar!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Hüquq guşəsi*

# Soruşun, cavab verək



***- Sığorta hadisələri və onlara görə verilən sığorta ödənişləri hansılardır?***

- "Hərbi qulluqçuların dövlət şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən, aşağıdakılar sığorta hadisələri hesab edilir və onlara görə sığorta ödənişləri həmin Qanunun 4-cü maddəsi ilə müəyyən edilmiş sığorta məbləğinin (11000 manat) müvafiq faiz nisbətlərində verilir:

a) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman həlak olduqda, öldükdə və ya xəbərsiz itkin düşdüyünə görə məhkəmə qərarı ilə ölmüş elan edildikdə - 100 faiz;

b) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman xəsarət (yaralanma, travma, kontuziya) alması, habelə xəstələnməsi nəticəsində xidmətdən (toplanışdan) buraxıldıqdan sonra üç il müddətində öldükdə - 100 faiz;

c) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman xəbərsiz itkin düşdükdə (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda) - 100 faiz;

ç) hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) almasına, habelə həqiqi hərbi xidmət dövründə xəstələnməsinə görə həqiqi hərbi xidmətə yararsız hesab edilərək həqiqi hərbi xidmətdən (toplanışdan) ehtiyata və ya istefaya buraxıldığı gündən, həmçinin, ehtiyata və ya istefaya buraxıldığı gündən həqiqi hərbi xidmət dövründə alınmış xəsarət (yaralanma, travma, kontuziya) və ya xəstəliklə əlaqədar üç il müddətində sığorta olunana əlillik təyin olunduqda:

I qrup əlilliyə görə - 80 faiz;
II qrup əlilliyə görə - 60 faiz;
III qrup əlilliyə görə - 40 faiz;

d) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman, bu maddənin a, b və ç bəndlərində nəzərdə tutulmuş hallarla nəticələnməyən:

- ağır xəsarət (yaralanma, travma, kontuziya) aldıqda - 25 faiz;
- yüngül xəsarət (yaralanma, travma, kontuziya) aldıqda - 5 faiz.

**Müdafiə Nazirliyi**
**Hüquq İdarəsi**

## Ermənistan silahlı qüvvələrinin məhv edilən pilotsuz uçan aparatı X-55 (Ptero - 5E) tipinə aiddir




Cəbhənin Ağdam rayonu istiqamətində Hərbi Hava Qüvvələrimizin hava hücumundan müdafiə bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinə məxsus məhv edilən kəşfiyyat məqsədli pilotsuz uçan aparatı X-55 tipinə aiddir.

***X-55 PUA-ın taktiki-texniki xüsusiyyətləri:***

- qanadların açılışı - 3030 mm;
- uzunluğu - 2100 mm;
- kreyser sürəti - 85-115 km/saat;
- maksimal uçuş sürəti - 180 km/saat.

***Havada qalma müddəti:***

- elektrik mühərriki ilə - 1.5 saat;
- benzin variantında - 8 saatadək;
- maksimal uçuş məsafəsi - 130 km;
- maksimal uçuş hündürlüyü - 2000 m;
- maksimal tətbiqetmə uzaqlığı - 85 km-dək;
- qalxma üsulu - katapult;
- enmə üsulu - paraşüt.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Quliyev Elşən Etibar oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 786
Nüsxə 4710